- **Anadan olduğu yer:** Ermənistan Respublikası, Amasiya rayonu, Yeniyol kəndi
- **Təvəllüdü:** 06.01.1947
- **Təhsili:** Azərbaycan Dövlət Pedoqoji İnstitutu, coğrafiya-biologiya fakültəsi
- **Elmi dərəcəsi:** Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:** Professor
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.16 - Ekologiya və 03.00.27 - Torpaqşünaslıq
- **Müxbir üzv seçildiyi tarix və ixtisasın adı:**2001, torpaqşünaslıq
- **Həqiqi üzv seçildiyi tarix və ixtisasın adı:** 2007, torpaqşünaslıq
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 450 elmi əsər, o cümlədən 28 monoqrafiya və kitab
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**100
- **Müəlliflik şəhadətnamələrinin və patentlərin sayı:** 26
- **Əsas elmi nailiyyətləri:**Azərbaycan torpaq ehtiyatları və onlardan səmərəli istifadə olunması; torpaq örtüyü quruluşunun qiymətləndirilməsi; deqradasiya olunmuş torpaqların qiymətləndirilməsi (şorlaşmış, şorakətləşmiş, eroziyaya uğramış, neftlə çirklənmiş, texnogen torpaqlar); Azərbaycan torpaqlarının aqroekoloji xüsusiyyətlərinin və bonitirovkasının öyrənilməsi; ilk dəfə Azərbaycan Respublikası torpaqlarının ekoloji qiymət xəritəsinin tərtibi; torpağın iqtisadi (pulla) qiymətləndirilməsinin elmi əsasları; torpaq münbitliyinin konseptual və riyazi modelləşdirilməsi; Azərbaycanın ekoloji problemlərinin sistem halında öyrənilməsi, konsepsiyasının işlənilməsi; Azərbaycan torpaq kadastrının rayonlaşdırılması və monitorinqi; Azərbaycanın torpaq atlası: Meşəaltı torpaqların qorunması məqsədilə bərpaolunan enerji (əsasən günəş və külək) mənbələrindən istifadənin ekoloji qiymətləndirilməsi və s.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 35
  **elmlər doktorların sayı:** 5

1. **Əsas elmi əsərlərin adları:** Azərbaycanda torpaq islahatı: hüquqi və elmi-ekoloji məsələlər ; Bakı 2000, s.372.
2. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi. Bakı, 1998, s.282
3. Torpaqların bonitikovkası. Bakı 1997, s.148
4. Azərbaycan torpaqlarının bonitikası və aqroekoloji xüsusiyyətləri, Bakı, 1990, s.172
5. Dağ əkinçiliyi üzrə kollektiv topoqrafiya (problemlər və ehtiyatlar) , Tbilisi, 1988 s.380.

1 - **Beynəlxalq və xarici ölkələrin elmi qurumlarında üzvlüyü:** Beynəlxalq Ekoenergetika Akademiyasının akademiki, Bakı, 1992;
Beynəlxalq "Neosfer" Akademiyasının həqiqi üzvü, Moskva 2000;
Rusiya Ekologiya Akademiyasının akademiki, Moskva 2000;
Rusiya Təbiət Elmlər Akademiyasının akademiki, Moskva 2001;
Beynəlxalq Torpaqşünaslıq Cəmiyyətinin ömürlük üzvü;
Rusiya Torpaqşünaslar Cəmiyyətinin üzvü;
Beynəlxalq Akademiyanın həqiqi üzvü, Avstriya 2001;
Azərbaycan torpaqşünaslıq cəmiyyətinin sədri.

- **Təltif və mükafatlar:**SSRİ XTNS-nin "Bürünc medalı" - 1987;

V.V.Dokuçaeva adına medal - 1983;
Azərbaycan Amerika Mədəniyyət Mərkəzi RH-nin Fəxri Fərmanı - 1999;
Akad. H.Əliyev adına mükafat, fəxri diplom və medal;
Rusiya EA-nın medalı - 2001.



# Siddiqə Rza qızı Məmmədova

- **Anadan olduğu yer:** Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Şərur rayonu, Şəhriyar kəndi
- **Təvəllüdü:**08.03.1925
- **Təhsili:**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, aqronom
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Professor
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.09 - Entomologiya
- **Müxbir üzv seçildiyi tarix və ixtisasın adı:**1983, entomologiya
- **Həqiqi üzv seçildiyi tarix və ixtisasın adı:** 2001, entomologiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 176
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**43
- **Müəlliflik şəhadətnamələrinin və patentlərin sayı:** 5
- **Əsas elmi nailiyyətləri:** Çoxillik meyvə, subtropik, yonca və başqa k/t bitkilərinin zərərli faunasının geniş öyrənilməsi əsasında mübarizə tədbirlərinin hazırlanması.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:**15
  **elmlər doktorlarının sayı:** 2

1. **Əsas elmi əsərlərin adları:** "Kənd təsərrüfatı entomologiyasi". Azərnəşr, 1964, 1984
2. "Azərbaycanda meyvə və subtropik bitkilərinin zərərvericiləri və onlarla mübarizə". Azərnəşr, 1974
3. "Azərbaycan SSR-də kənd təsərrüfatı bitkilərinin zərərvericiləri, xəstəlikləri və onlarla mübarizə üzrə soraq kitabı". Azərnəşr, 1965
4. Kənd təsərrüfatı bitkilərinin başlıca zərərvericiləri və xəstəlikləri (fermer təsərrüfatları üçün). Bakı, 2000 .
5. Bitki mühafizə işlərində istifadə olunması tövsiyyə edilən kataloq. Gəncə, 2002.

- **Təltif və mükafatlar:** "Şərəf Nişanı" ordeni - 1967;

"Əməkdə İgidliyə Görə" medali - 1967;
"Qırmızı Əmək Bayrağı" ordeni - 1971; "Qırmızı Əmək Bayrağı" ordeni - 1978;
Azərbaycan SSR "Əməkdar Elm Xadimi" - 1978;
"Əmək Veteranı" medalı - 1982; "Şöhrət" ordeni - 2000



# Məmməd Əhəd oğlu Salmanov

- **Anadan olduğu yer:** Ermənistan Azərbaycan, Zəngibasar bölgəsi, Qaraqışlar kəndi
- **Təvəllüdü:**12.01.1932
- **Təhsili:**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, baytar həkim
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Professor
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.18 - Hidrobiologiya, 03.00.07 - Mikrobiologiya
- **Müxbir üzv seçildiyi tarix və ixtisasın adı:**2001, mikrobiologiya
- **Həqiqi üzv seçildiyi tarix və ixtisasın adı:** 2007, mikrobiologiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 180
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**76
- **Əsas elmi nailiyyətləri:** XX əsrin 50-ci illərində müxtəlif iqlim-soğrafi şəraitdə yaradılan süni su hövzələrinin (Volqa üzərində-Kuybişev və Kür cayı məcrasında-Mingəcevir su anbarları misalında) formalaşmasında ümumi qanunauyğunluqun təyin və elmi-cəhətdən əsaslandırılması; Kür və Araz Çayları hövzəsində uzun müddətli antropogen tə"sirlərin nəticəsində ekosistemdə mikroğioloji sukçessiyanın yaranmasının subatı və ekoloji təzadları; Xəzər dənizində üzün maddələr balansının təyin edilməsi. Həmçinin Xəzərdə antropogen evtroflaşmanın ekoloji təzadları və oksigen məsrəfinin artması səbəbləri. "Tətbiqi ekologiyanın əsasları", "Ekologiya və biz", "Bir içim su" dərslik vasitələri kitabları; "Xəzər dənizinin bioloji məhsuldarlığının ekologiyası", "Kür çayı hövzəsinin ekologiyası" monoqrafiyaları. 2 metodik tövsiyyə.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 9
  **elmlər doktorlarının sayı:** 2

1. **Əsas elmi əsərlərin adları:** Azərbaycanın su hövzələrinin müasir ekoloji vəziyyəti (1973, monoqrafiya, Bakı)
2. Xəzərin məhsuldarlığı proseslərində mikrofora və fitoplanktorun rolu (1987, Moskva"Nauka"- monoqrafiya. Həmin əsər 1994-cü ildə JJR-da çap olunub-Farsca)
3. Kür çayı və Kür hövzəsinə aid sututarlaror ekologiyası (1996, monoqrafiya, Bakı)
4. Xəzər dənizinin bioloji məhsuldarlığı və ekologiyası (1999, Bakı -monoqrafiya)
5. Orta və Cənubi Xəzərin dərin yerlərinin mikrobiologiyası (Həştərxan 2001)

- **Təltif və mükafatlar:**AMEA-nın Fəxri Fərmanı - 2002, "Şöhrət" ordeni - 2005

***Elmlər doktorları***



# Arif Əli oğlu Bayramov

- **Anadan olduğu yer:**Azərbaycan Respublikası, Bakı ş.
- **Təvəllüdü:**17.03.38
- **Təhsili:**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, aqronom
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.05 - Botanika
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 80
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**44
- **Əsas elmi nailiyyətləri:** 200 növ bitki ( Aizoaceae, Crassulaceae, Asparaqaceae və s. fəsilələr) quru subtropik zonaya introduksiya edilib və tədqiq olunmuşdur. Bu növlərin təkamüldə struktur əlamətlərinin uyğunlaşma mahiyyəti aşkar olunub və ekoloji-tarixi retroproqnoz fonunda adaptiv potensialı aydınlaşdırılmışdır; tədqiq olunan növlər əsasında onların əmələgəlmə mənşəyi, hal-hazırdaki təbii areallarına miqrasiya olunma vaxtı və yolları müəyyənləşdirilmişdir. Nəticədə introduksiya olunmuş növlərin təbii arealarının quru subtropik zona üçün perspektiv mənbə olduğunun nəzəri əsasları verilmiş və bu məsələ praktiki sübut olunmuşdur. Müxtəlif illər boyu daxili və xarici yaşıllaşdırma üçün 15 növ bitki tətbiq olunmuşdur.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 5

1. **Əsas elmi əsərlərin adları:** Основные черты приспособительной сущности р.Sedum. Докл. АН Аз. ССР . №5 Баку, 1981. с. 52-55.
2. Экологические основы интродукции травянистых ксерофитов в условиях сухих субтропиков. ВИНИТИ, М., №1993, 1981, 119 с.
3. Экологические основы интродукции растений в условиях сухих субтропиков Азербайджана (итоги и переспективы). В кн. "Azərbaycan florası bitkiçiliyinin istifadəsi və qorunması", Bakı, 1999. с. 352-357
4. The World Compendium of Oaks. Dic. Eichen Kaukasiens Eichen Archiv Dusseldorf, 2004. 171 p.
5. Кавказская флора как интродукционный очаг лекарственных, ароматических, декоративных растений для зоны сухих субтропиков. В кн. "Генетические ресурсы лекарственных и ароматических растений" ВИЛАР. Москва, 2004, с. 78-80

- **Beynəlxalq və xarici ölkələrin elmi qurumlarında üzvlüyü:**Avropa-Asiya Botanika Bağlarının İdarə Heyətinin üzvü

## Əlləddin Abdulla oğlu Əsgərov

- **Soyadı adı, atasının adı** **Əlləddin Abdulla oğlu Əsgərov**
- **Elmi dərəcə** Elmlər doktoru

Əlləddin Abdulla oğlu Əsgərov 1926-cı ildə Gəncədə qulluqçu ailəsində anadan olmuşdur. 1942-ci ildə o, Gəncə şəhərində 1 saylı orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indi Azərbaycan Dövlət Aqrar Universiteti adlanır) baytarlıq təbabəti fakültəsinə daxil olmuşdur. 1947-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vuraraq keçmiş Səfərəliyev rayonunda (indi Samux) baş həkim işləmişdir. 1948-ci ildə AKTA-nın Mikrobiologiya kafedrasının aspirantı olmuşdur. 1951-ci ildə namizədlik, 1966-cı ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Həmin ildən professor elmi adı almışdır. 1965-ci ildən yaxın dövrədək kafedra müdiri vəzifəsində işləyib. Rusiya Aqrar Təhsil Akademiyasının həqiqi üzvüdür, 600-dən artıq müxtəlif istiqamətli elmi, ictimai-siyasi məqalə və digər əsərlərin, 60-dan çox kitabın, dərslik, dərs vəsaiti, monoqrafiya, bədii-elmi kitabın, 10 ixtiranın, 12 təsərrüfata tətbiq edilən tövsiyənin müəllifidir. Alimin rəhbərliyi altında 14 nəfər elmlər namizədi və doktoru hazırlanmışdır. O, dünya üzrə insan ekologiyası, kainatın anatomiyası, insanın mənşəyi, təkamül təliminə yeni baxış, həyatın yaranma tarixinə dair, ölməzlik kimi təlimlərin ilk müəllifidir. Əlləddin Əsgərovun təbiətin və ətraf mühitin mühafizəsi və sanitariya-gigiyena kimi dərslikləri 4 dəfə təkrar çap olunmuşdur.

Ə.Əsgərov Azərbaycan dilində "Kənd təsərrüfatı heyvanlarının gigiyenası" dərsliyini tərtib edən ilk alim olmuşdur. Sonralar bu dərslik dəfələrlə müxtəlif düzəlişlərlə təkrar çapdan çıxmışdır (1967, 1972, 1981, 1989, 1992, 2004, 2007). Bu nəşr əsasında ilk dəfə kənd təsərrüfatı heyvanları üçün texniki-layihə və zoogigiyenik normalar hazırlanmış, tövsiyələr kimi Kənd Təsərrüfatı Nazirliyi tərəfindən təsdiq edilmişdir. Əlləddin müəllim müxətlif istiqamətli (tarix, biologiya, ədəbiyyat, ictimai-siyasi və sosioloji tədqiqat və s.) sahələr üzrə də qələmini sınamışdır. O, gigiyena, ekologiya, bədii, elmi-kütləvi kitabların - "Bilirsinizmi?", "Nələr olmur bu dünyada?", "Təbiətin mühafizəsi", "Ətraf mühitin qorunması", "İnsan və təbiət", "İnsan ekologiyası", "Ekologiya və poeziya", "Təkamül təliminə yeni baxış", "Ovçuluğun əsasları", "Ailə ekologiyası", üç cilddən ibarət "Müasir ekologiya" (2004-2006) və s. dərsliklərin və digər əsərlərin müəllifidir. Onun kitabları Azərbaycanın hər yerində geniş oxucu auditoriyasına malikdir. Ekologiya üzrə tədqiqatları 1972-ci ildən 1988-ci ilə qədər Azərbaycanın ali məktəblərində istifadə edilən ilk və yeganə dərslik olmuşdur. Bu gün də onun dərslikləri ali tədris ocaqlarında geniş istifadə edilir. Elmi əsərləri və ixtiraları, habelə müxtəlif mövzularda olan ictimai-siyasi yazıları mətbuat səhifələrində ilk dəfə səslənən, həm də hamının diqqətini cəlb edən, oxunan məqalələr olmuşdur.

Professor Ə.Əsgərov tərəfindən təbiətin mühafizəsi (1972), dərman bitkilərinin qorunması (1970), keçmiş alüminium zavodunun tullantılarına qarşı mübarizə yox, müharbə (1969), su mənbələri və içməli suların öyrənilməsi (1967-ci ildən), neft tullantılarının dezinfeksiya təsirliyi (Neft-Kimya İnstitutu ilə birgə 1960-1972-ci illər), təbii dağ minerallarının yem əlavəsi kimi istifadəsi (Geologiya İnstitutunun əməkdaşı professor H.Mahmudov ilə birgə) və s. məsələlər öyrənilmiş, ixtiralar edilmiş və Moskvadan müəlliflik şəhadətnamələri alınmışdır. Siqaretə qarşı mübarizə (1988), əməkhaqqı (1993) və s. haqqında məqalələrlə çıxış etmişdir. Hələ ekologiya ifadəsi "dəb" olmayan bir dövrdə onun bu sahədə (1967-1972) qələmə aldığı əsərlər oxucuların diqqətini cəlb etmişdir.

Alimin "Gəncənin tarixi yaddaşından" və "Gəncə salnaməsindən bir yarpaq" (2000-2003), "Müasir ekologiya" (2004-2007) kitabları oxucuların diqqətini cəlb etmişdir. Ə.Əsgərovun "Gəncənin tarixi yaddaşından" kitabı bu diyarın ən görkəmli şəxsiyyətlərinə, alimlərinə və bu yurddan bəhrələnənlərin elmi-yaradıcı irsinin öyrənilməsinə həsr edilmişdir. O, bununla regionların tarixinin yazılması məsələsini qaldırmışdır.

Əlləddin Əsgərov ekologiya üzrə tədris planına ilk dəfə olaraq 1995-ci ildə "İnsan ekologiyası" mövzusunu daxil etmişdir. Bu problemə insanın özü ilə əlaqədar olan ailə, şəxsiyyət, poeziya, dil, din, tərbiyə, turizm və incəsənət kimi məsələlər də daxil edilmişdir. O, ölkənin, millətin, xalqın səadətini sanitariya-gigiyena və ekologiya məsələlərinin həllində görür. Həmin problemlərə çoxlu elmi məqalələr həsr etmişdir. Tədqiqatçı alim son illər şəxsiyyətlərin orta ömür müddətlərini, iqlimin doğum baxımından insanlara təsirini öyrənir, qalaktikalarda gedən proseslərə (toqquşmalar, partlayışlar), iqlim dəyişikliklərinə və təbii fəlakətlərə diqqət

yetirir, elmi yeniliklərə əsaslanaraq bir çox möcüzənin həqiqətə çevrilməsi, Yer kürəsində kəskin dəyişikliklərin baş verməsi, həyatın sönməsi və yeni həyat formalarının yaranması, insan ömrünün uzadılması və s. kimi maraqlı, düşündürücü gələcəyə proqnoz verən mülahizələr üzərində işləyir.

Ələddin müəllimin əsərlərinin cəmi 600 çap vərəqindən çoxdur. Ələddin Əsgərovun elmi fəaliyyəti və tədris etdiyi fənn çoxsahəli olduğu üçün onun hazırladığı 14 elmlər namizədi və elmlər doktoru da müxtəlif sahələr - biologiya, baytarlıq, kənd təsərrüfatı və texniki elmlər üzrə mütəxəssislər olmuşdur. O, Azərbaycanda təbii mühitin korlanmasına qarşı çıxış edən (1969), ekologiya sahəsində ixtisaslı kadrların hazırlanmasının vacibliyini önə çəkən ilk alimlərdən olmuşdur.

Ələddin Əsgərov doqquz il baytarlıq təbabəti fakültəsinin dekanı, yeddi il Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifələrində işləmişdir. Vaxtilə Gəncə Şəhər Təbiəti Mühafizə Cəmiyyətinin üzvü, şəhərin ekologiya cəmiyyətinin sədri olmuşdur. O, 45 ildən artıqdır ki, ADAU-nun Elmi Şurasının üzvüdür. Ələddin müəllim elmi axtarışlarına və ixtiralarına görə hələ keçmiş SSRİ Ali Soveti Rəyasət Heyətinin və digər ali orqanların fəxri fərmanlarına, müxtəlif medallara, diplomlara və müəlliflik şəhadətnamələrinə layiq görülmüşdür.

# Akif Paşa oğlu Gərayzadə



- **Anadan olduğu yer:** Azərbaycan Respublikası, Quba ş.
- **Təvəllüdü:**17.10.1938
- **Təhsili:**Azərbaycan Dövlət Universiteti, fizika
- **Elmi dərəcəsi:**Kənd təsərrüfatı elmləri doktoru
- **Elmi rütbəsi:**Professor
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.27 - Torpaqşünaslıq
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 155; 3 monoqrafiya
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**100
- **Əsas elmi nailiyyətləri:**Torpaqda istilik, elektrik, optik və su-fiziki xassələri arasındakı asılılıqların riyazi modelləri; dielektrik nüfuzu əsasında torpaq səthinin sahəsi və optik xassələri torpaqların rənginin təyini üsulları; elektrik keçirmə əmsalları əsasında torpaq nəmliyi və duzlaşması dərəcəsənin təyini üsulları; aerokosmik informasiya əsasında torpaqların duzlaşması və nəmliyi göstəricilərinin təyini; bitkilərin enerjidən faydalı istifadəsi əmsalının təyini; torpaqların istilik keçirməsi xassələrinin sxem-xəritələrinin tərtibi; torpaq-bitki-hava sistemində enerjinin paylanması modelinin tərtibi.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 12
  **elmlər doktorlarının sayı:** 1

1. **Əsas elmi əsərlərin adları:** Azərbaycanın bəzi biosenozlarının bitki maddəsində akkumulyasiya olunmuş enerjinin kalometrik təyini və günəş enerjisinin istifadə dərəcəsinin hesablanması (rus.d.) "Bioloji məhsuldarlığın ümumi nəzəri problemləri" adlı kitabda, Leninqrad, "Nauka", 1969, 115-118 s. və Soviet Geoqrafi. New York, 1972, 63-67 s.
2. Torpaq sistemlərində istilik və nəmlik keçirmələri. Bakı, "Elm", 1982, s.157 (rus.d.)
3. Torpaq-bitki-atmosfer sistemində enerjinin dəyişmələri, Bakı, "Elm", 1989, s.160, (rus.d.)
4. Torpaqəmələgəlmə və antropogenez: struktur funksional aspektlər, (müştərək müəl.), Novosibirsk, "Nauka", 1991, s.188 (rus.d.)
5. Torpaqların optik xassələri və onların kənd təsərrüfatında istifadəsi. (ing.d) Beynəlxalq Simp. əsərləri. Konya Türkiyə, 2000, 183-186 s.

- **Təltif və fəxri adları:**Əməkdar elm xadimi
- **Beynəlxalq və xarici ölkələrin elmi qurumlarında üzvlüyü:**Beynəlxalq Torpaqşünaslar İttifaqının üzvü B.B.Dokuçayev adına Rusiya Torpaqşünaslar Cəmiyyətinin üzvü



# Mahmud Yusif oğlu Xəlilov

- **Anadan olduğu yer:**Azərbaycan Respublikası, Şəki ş.
- **Təvəllüdü:**19.04.1931
- **Təhsili:**Azərbaycan Kənd Təsərrüfatı İnstitutu, meşə təsərrüfatı mühəndisi
- **Elmi dərəcəsi:**Coğrafiya elmləri doktoru
- **Elmi rütbəsi:**Baş elmi işçi
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:**11.00.01- Fiziiki coğrafiya , landşaftların geofizikası və geokimyası, 11.00.05 - Biocoğrafiya və torpaq coğrafiyası
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:**155, 5 monoqrafiya, lüğət, 6 məqalə
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**16
- **Əsas elmi nailiyyətləri:**Kürqırağı meşələrin irimiqyaslı xəritəsi tərtib olunmuş, tuqay meşələrinin bərpası elmi əsaslanmış tədbirlər sistemi hazırlanmışdır. Meşə edifikatorlarının və qiymətli ağac cinslərinin ekoloji arealları, şaquli sərhədləri, müxtəlif dağ sistemlərində meşənin yuxarı sərhəddi müəyyənləşdirilmişdir. Meşə bitkisinin antropogen dinamikasının istiqamətləri müəyyənləşdirilmiş, müxtəlif dağ qurşaqlarında meşənin bərpası və səmərəli istifadəsi üzrə tədbirlər hazırlamışdır. Sıradan çıxmaq təhlükəsi olan qiymətli meşə obyektləri aşkar edilmiş, onların mühafizəsi məqsədilə yeni qoruq və yaşıllıqların təşkili tövsiyyə edilmişdir.

1. **Əsas elmi əsərlərin adları:** Azərbaycanın tuqay meşələri. "Elm", Bakı,1976, 8.5 ç.v., H.Ə.Əliyevlə birgə (rus dilində )
2. Azərbaycanın eroziyaya uğramış dağ yamaclarında qərzəkli meyvə plantasiyalarının salınması. "Elm", Bakı, 1986, 8 ç.v., İ.S.Səfərovla birgə
3. Təbiətin yaşıl libası. "Gənclik", 1988, 10 ç. v.
4. Dendrologiya. Ali məktəblər üçün dərslik. Ekologiya nəşr., Bakı, 2000, 164 ç. v.
5. Ekologiya, təbiəti mühafizə. İzahlı lüğət. 31.2 ç. v. Ekoloji nəşr, 2000, V.Ş.Quliyevlə birgə



# Zülfüqar Mustafa oğlu Quliyev

- **Anadan olduğu yer:**Azərbaycan Respublikası, Gədəbəy şəhəri
- **Təvəllüdü:**03.06.1932
- **Təhsili:**Azərbaycan Dövlət Universiteti, bioloq-zooloq
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Baş elmi işçi
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.08 - Zoologiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 195, 5 monoqrafiya, 5 elmi-metodiki vasait, 2 elmi-kütləvi kitabça
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**25
- **Əsas elmi nailiyyətləri:** Xəzər dənizinin Azərbaycan ərazisində məskunlaşan çəkikimi və xanıkimi balıqların növdaxili dəyişkənliyinin populyasiya səviyyəsində tədqiqini başa çatdırmış, Azərbaycanın dağ çaylarında və göllərində yaşayan forel (qızılxallı) balıqların morfobiloji əlamətlərini ətraflı öyrənmiş, Azərbaycanda göl balıqçılığının, eləcə də forel balıqçılığının inkişaf etdirilməsinin elmi əsaslarını hazırlanmış, Respublikada ilk forel balıqçılıq təsərrüfatlarının yaradılmasına nail olmuş, onların səmərəli fəaliyyət göstərmələri üçün elmi və praktiki köməklik göstərmiş və göstərməkdədir.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 3

1. **Əsas elmi əsərlərin adları:** Xəzər dənizi Kirov körfəzinin balıqları. "Elm" nəşriyyatı, 1989, 183 s.
2. Yerex-Aspius aspius (növün areal daxilində xarakteristikası). "Elm" nəşriyyatı, 1995, 252 s. (Müəlliflər kollektivi)
3. Naxçıvan Müttəfiq Respublikasının vətəgə balıqları. "Araz" nəşriyyatı, 2000, 51 s. (Həmmüəllif T.Məmmədov)
4. Cənubi və Orta Xəzərin çəkikimi və xanıkimi balıqları. "Araz" nəşriyyatı, 2002, 254 s.
5. Azərbaycanın forel balıqları. "Günəş" nəşriyyatı, 2005, 112 s.
6. Xəzərin Azərbaycan sektorunda nərə cinsli balıqların müasir ehtiyatının qiymətləndirilməsi. Xəzərdə balıqtəsərrüfatı tədqiqatları. Həştərxan, 2004, s.247-258.

- **Təltif və fəxri adları:**Əmək veteranı;

AMEA-nın Fəxri fərmanı



# Ramiz Mahmud oğlu Məmmədov

- **Anadan olduğu yer:**Gürcüstan Respublikası, Qardabani rayonu, Qaracalar kəndi
- **Təvəllüdü:**04.02.1950
- **Təhsili:**Azərbaycan Dövlət Universiteti, fizika fakultəsi
- **Elmi dərəcəsi:**Texnika elmləri doktolru
- **Elmi rütbəsi:**Professor
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:**11.00.07 - Hidrologiya, su ehtiyatları və hidrokimya
- **Müxbir üzv seçildiyi tarix və ixtisasın adı:**2001, coğrafiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:**154 elmi əsər, 3 monoqrafiya, 1 atlas
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**24
- **Əsas elmi nailiyyətləri:**İlk dəfə Xəzər dənizinin açıq hissəsində geniş miqyasda dəniz turbulentliyinin staistik və spektral xarakteristikalarını öyrənmiş, dənizdə çirkləndiricilərin yayılması və paylanmasının ümumi qanunauyğunluqlarını müəyyən etmişdir. Dəniz səthində küləyin sürət və istiqamətinin və dəniz səthindən istilik axının məlum olduğu hal üçün dənizin yuxarı kvaizibircins temperatur qatının müəyyən edilməsi üçün yarımempirik model işləmişdir. Xəzər dənizində çirkləndiricilərin yayılmasına hidrofiziki parametrlərin dəyişkənliyinin təsirini geniş diapazonda tədqiq etmişdir. Xəzər dənizində müxtəlif hidrometoroloji şəraitdə, dibin morfometriyası və sahil xəttinin konfiqurasiyasını nəzərə alınmaqla, çirkləndiricilərin yayılmasının fiziki-coğrafi modelini işdəmişdir. Xəzər dənizi səviyəsi dəyişməsinin səbəbini tədqiq etmiş, səviyyəyə tə'sir edən amillərin tə'sir dərəcəsini müəyyən etmiş, birinci yaxınlaşmada onun uzunmüddətli proqnozunu vermişdir. Xəzər dənizinin kompleks hidrometeoroloji atlasını hazırlayıb çap etmişdir.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 5
  **elmlər doktorların sayı:** 1

1. **Əsas elmi əsərlərin adları:** Yaz qızması dövründə və qasırğalı küləklər təsirində dayaz dənizin termik strukturasının evolyusiyası., 1979, Atmosfer və Dənizin Fizikası SSRİ EA-nın Xəbərləri, C. 15, №9, s. 974-982. (rus dilində).
2. Xəzər dənizi səviyyəsinin empirik proqnozu 1996, Azərbaycan EA-nın Xəbərləri, Yer Elmləri seriyası, № 1-6, s. 99-108.
3. İqlim anomaliyalarının Xəzər dənizinin səviyyəsinə təsiri. 1998, «İqlim və Su» mövzusunda II beynəlxalq simpozium, Helsinki, s.1025-1031 (ingilis dilində).
4. Xəzər dənizinin sahil zonasında temperatur anomaliyasının formalaşmasının modelləşdirilməsi. 2000, Okeanologiya, c. 40, №4, s. 500-508. (rus dilində).
5. Xəzər dənizində fasiləsiz mənbədən axan neftin yayılmasının proqnozlaşdırılması. Spill Science and Technology Bulletin, C.5/6 - 6 s. 323-339 (ingilis dilində).

- **Beynəlxalq və xarici ölkələrin elmi qurumlarında üzvlüyü:** Avropa İttifaqının Qafqaz ölkələri üçün yaratdığı Beynəlxalq Ekoloji Mərkəzin Məşvərət Şurasının Prezidenti.
- **Pedaqoji fəaliyyəti:** Bakı Dövlət Universitetində mühazirə oxuyur



# Zəkəriyyə Məhərrəm oğlu Məmmədov

- **Anadan olduğu yer:**Azərbaycan Respublikası, Ordubad ş.
- **Təvəllüdü:**29.06.1937
- **Təhsili:**Bakı Dövlət Universiteti, biologiya
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Baş elmi işçi
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.09 - Entomologiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 59 məqalə, 1 monoqrafiya
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:** 25
- **Əsas elmi nailiyyətləri:** Azərbaycanda meyvə bitkilərinə zərərverən 74 növ pulcuqluqanadlı və onları tələf edən 79 növ parazit aşkar edilmişdir. Bunlardan 16 növ kəpənək və 29 növ parazit Azərbaycan faunası üçün ilk dəfə qeyd olunur. Zərərvericilərdən alma və zolaqlı meyvə güvələrinə qarşı bioloji mübarizədə istifadə etmək üçün 3 növ parazitin (nutobiya armillata, brakon hebetor, perisieroia qallikola) laboratoriya şəraitində cənub ambar odlucası üzərində çoxaldılma yolları, aqeniaspis parazitinin isə arealdaxili köçürmə üsulu işlənib hazırlanmış və tətbiq olunmaq üçün Kənd Təsərrüfatı Nazirliyinə təqdim edilmişdir. Azərbaycanın Mil-Muğan zonasında pambıq sovkasının sayının tənzimlənməsində entomofaqların və entomooatogen mikroorqanizmlərin rolu öyrənilmiş, respublikada ilk dəfə olaraq faydalı həşəratların say meyarlarından istifadə etməklə, pambıq sovkasına qarşı inteqrasiya mübarizə üsulu təklif edilmişdir. İlk dəfə olaraq Azərbaycanda meşə ağaclarına zərərverən 37 növ ksilofaq və onları məhv edən 35 növ entomofaq aşkar edilmişdir. Onlardan 7 növ ksilofaqın və 4 növ entomofaqın bioloji xüsusiyyətləri və təsərrüfat əhəmiyyəti öyrənilmişdir.

1. **Əsas elmi əsərlərin adları:** Adeniaspis parazitinin arealdaxili köçürülməsi. "Bitki mühafizəsi" jurnalı, N4 1977, Moskva
2. Azərbaycanda pambıq sovkasına qarşı mübarizəsində, entomofaqların say meyarlarından istifadə edilməsi. Bitki mühafizə problemləri üzrə elmi-tədqiqat işləri üzrə Zakafqaziya əlaqələndirmə şurasının materialları, 1984, Yerevan.
3. Azərbaycanda pambıq sovkasına qarşı mübarizədə VİRİN-XS virus preparatının istifadənin nəticələri. "Məqalələr toplusu" kitabında, 1984, Moskva.
4. Azərbaycanda meyvə bitkilərinə zərərverən pulcuqluqqanadlıların parazitləri və onların bioloji mübarizədə istifadə olunma yolları. Bakı "Elm", 2004, 236 səh.
5. Azərbaycanda Böyük Qafqaz zonasında meşə ağaclarına zərərverən ksilofaqlar və onların təbii düşmənləri. AMEA-nın "Xəbərlər jurnalı" N1-6, 1997, Bakı.

- **Təltif və fəxri adları:** AMEA-nın Rəyasət Heyətinin və Azərbaycan Ekologiya və Təbii Sərvətlər nazirliyinin Fəxri fərmanları



## Səlim Hüseynpaşa oğlu Musayev

- **Anadan olduğu yer:**Gürcüstan respublikası Dmanisi rayonu, Yuxarı Oruzman kəndi
- **Təvəllüdü:**29.05.1937
- **Təhsili:**Gəncə Dövlət Pedaqoji Universiteti, biologiya və kənd təsərrüfatı istehsalının əsasları
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Aparıcı elmi işçi
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:**03.00.05 - Botanika
- **Müxbir üzv seçildiyi tarix və ixtisasın adı:**2001, botanika
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 130
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**37
- **Əsas elmi nailiyyətləri:**Azərbaycan florasında 450 taxıl növünü təşkil edən 120 cinsin ilk dəfə olaraq yayılması göstərilmişdir. Elm üçün 10 növ təsvir edilmiş, keçmiş ittifaq florası üçün bir taxıl cinsi və 14 növ, Qafqaz florası üçün 7 növ, Azərbaycan florası üçün 8 cins və 150 növ, Talış florası üçün 2 cins və 18 növ, Naxçıvan florası üçün 5 cins və 38 növ ilk dəfə olaraq göstərilmişdir. Azərbaycan florasında 446 növün məhv olma qarşısında qalması açıqlanmışdır. İlk dəfə olaraq 53 şübhəli və çətin təyin edilən növlərin morfoloji-anatomiki tədqiqatı aparılmış və bir sıra konstanr nişanələr müəyyən edilmişdir. Azərbaycan florasının əmələ gəlməsində və formalaşmasında bir sıra elmi yeniliklər irəli sürülmüş; yeni botaniki-coğrafi rayonlaşdırma vermişdir. Floranın əmələ gəlməsində Aralıq dənizi, Qafqaz və Avrosibir geoelementlərinin əsas rol oynaması açıqlanmışdır. Tərəçiçəkkimilər, Cilkimilər, Südləyənkimilər fəsilələri sistematik öyrənilmiş, onlarca bitkilərin yeni yayılma sahələri müəyyən edilmişdir.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 6

1. **Əsas elmi əsərlərin adları:** Azərbaycan taxıllarının təyinedicisi
2. Azərbaycan taxılları
3. Bəzi Azərbaycan taxıllarının yeni nomenklatur dəyişgənliyi
4. Azərbaycan taxılları (Poacae) haqqında yeni məlumatlar
5. Azərbaycan florasının Südləyənkimilər fəsiləsi

- **Təltif və mükafatlar:** Keçmiş Sov.İKP, SSRİ Nazirlər Soveti və Ümumittifaq Həmkarlar Təşkilatı Mərkəzi Şurası və Ümumittifaq Lenin Komsomolu Gənclər İttifaqı Mərkəzi Şurasının Fəxri Fərmanı;
Azərb. SSR Lenin Komsomolu Mərkəzi Komitəsinin Fəxri Fərmanı.



## Nailə Bəhmən qızı Mirzəyeva

- **Anadan olduğu yer:**Azərbaycan Respublikası, Bakı şəhəri
- **Təvəllüdü:**14.01.1939
- **Təhsili:**Azərbaycan Dövlət Universiteti, biologiya və kimya müəllimi
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Baş elmi işçi
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.09 - Entomologiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 57, 2 monoqrafiya, 1 kitabça
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**7
- **Əsas elmi nailiyyətləri:**İlk dəfə Azərbaycan faunası üçün 384 növ yarpaqyeyən böcək (Coleoptera, Chrysomelidae) aşkar olunmuşdur. Bunlardan 1 növü elm üçün yenidir. 133 növü Azərbaycan, 58 növü Cənubi Qafqaz və 10 növü Qafqaz üçün ilk dəfə göstərilir. 1 cins təftiş olunmuşdur. İlk dəfə kənd təsərrüfatı bitkilərinə zərər verən 155 növ yarpaqyeyən böcək müəyyən edilmişdir, onlardan 14 növü daha ciddi zərəverici olduğu üçün onların bioekoloji xüsusiyyətləri, təbii düşmənləri (entomofaqları) öyrənilmiş və mübarizə tədbirləri Kənd Təsərrüfatı Nazirliyinə təqdim edilmişdir. İlk dəfə olaraq Azərbaycanda meşə ağaclarına zərərverən 37 növ ksilofaq və onları məhv edən 35 növ entomofaq aşkar edilmişdir. Onlardan 7 növ ksilofaqın və 4 növ entomofaqın bioloji xüsusiyyətləri və təsərrüfat xüsusiyyətləri və təsərrüfat əhəmiyyəti öyrənilmişdir.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 3

1. **Əsas elmi əsərlərin adları:** Azərbaycanda söyüdkimilərə zərər verən yarpaqyeyən böcəklər. "Вестник зоологии" jurn., Kiyev, 1983.
2. Azərbaycanın yarpaqyeyən böcəkləri (monoqrafiya) Bakı, 1988, 1-286 səh.
3. "Azərbaycanın heyvalar aləmi", II cild, Bakı, 1996 (həmmüəlliflərlə).
4. Şərqi Azərbaycanın yarpaqyeyən böcəklərinin formalaşması və zoocoğrafi təhlili. MEA "Məruzələr" jurn., 2000
5. Azərbaycanın yarpaqyeyən böcəklərinin ekoloji-faunastik kompleksinin öyrənilməsinə dair. Türkiyə, 2001, 41-52 səh.

- **Təltif və fəxri adları:**AMEA-nın Fəxri fərmanı;
Əmək veteranı



## Zeynalabdin Rəsul oğlu Mövsümov

- **Anadan olduğu yer:**Azərbaycan Respublikası, Naxçıvan Muxtar Respublikası, Ordubad r-u, Dırnıs kəndi
- **Təvəllüdü:**21.12.1925
- **Təhsili:**Azərbaycan Dövlət Universiteti, biologiya fakultəsi, bitkilərin fiziologiyası
- **Elmi dərəcəsi:**Kənd təsərrüfatı elmləri doktoru
- **Elmi rütbəsi:**Professor
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:**06.01.04 - Aqrokimya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:**203; 5 monoqrafiya
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**46
- **Müəlliflik şəhadətnamələrinin və patentlərin sayı:** 1
- **Əsas elmi nailiyyətləri:**Azərbaycanın müxtəlif bölgələri şəraitində becərilən bitkilərin elmi cəhətdən əsaslandırılmış gübrə sistemləri, qida rejimləri müəyyən edilmiş və kompleks gübrələmə sistemləri işlənmişdir. Əsas qida maddələrinin (NRK) balansı öyrənilmiş və Azərbaycanda becərilən bitkilər altında azotun mənfi, fosfor və kaliumun müsbət balansda olduğu müəyyənləşdirilmişdir. Gübrələrin illik normasını 25-50% azaldaraq lokal üsulla verilməsi təklif edilmişdir. Bitkiçilikdə azot problemi ilə bağlı bir sıra məsələlər tədqiq edilmiş; azotun formalarının torpaqda çevrilməsi, dinamikası, karbonatlı torpaqlarda azotun amonyak formasında itməsi və bu itkinin azaldılma üsulları təklif edilmişdir. Bitki məhsullarında nitratların toplanma və paylanması öyrənilərək onların rəngli ekspozisiyada Atlası tərtib edilmişdir.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 22

1. **Əsas elmi əsərlərin adları:** Azərbaycanın bəzi torpaqlarında azotun dinamikası və səmərəliliyi. Bakı, "Elm", 1967; 9 çar.v.
2. Karbonatlı torpaqlara verilən gübrələrdən azotun amonyak şəklində itkiləri. (rus.d) Aqrokimya jur.№5,1969, 0,3, çar.v.
3. Azot Azərbaycan əkinçiliyində. Bakı, "Elm", 1978, 12 çar v.
4. Bitki məhsullarında nitratlar və onların toplanmasının aqroekoloji şəraiti. "Azərb.SSR EA Xəbərləri" jurnalı, biologiya seriyası №3, 1987; 0,3, çar.v
5. Nitratların bitki məhsullarında toplanması. Bakı, "Elm", 3 çar v.6.

- **Təltif və fəxri adları:**2 orden, 13 medal, 10 döş nişanı, 11 Fəxri fərman
- **Beynəlxalq və xarici ölkələrin elmi qurumlarında üzvlüyü:**Beynəlxalq Ekoenergetika Akademiyasının həqiqi üzvü

V.V.Dokuçaev ad.Rusiya Torpaqşünaslar Cəmiyyətinin üzvü



# Raxmatulina İrina Kasimovna

- **Anadan olduğu yer:**Rusiya, Sverdlovsk vilayəti, Nijniy Taqil şəhəri
- **Təvəllüdü:**13.02.1933
- **Təhsili:**Azərbaycan Dövlət Universiteti, biologiya fakültəsi, bioloq-zooloq
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Böyük elmi işçi
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.08 - Zoologiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 100
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**65
- **Əsas elmi nailiyyətləri:** Teriologiya, ekologiya, zoocoğrafiya. Dar ixtisası - Yarasaların fauna, ekologiya, demoqrafiya, morfologiyası. Çoxillik müşahidələrin (40 ilə yaxın) nəticələri "Azərbaycanın yarasaları (Fauna, Ekologiya, Zoocoğrafiya) monoqrafiyasında ümumiləşdirilmişdir. "Azərbaycanın heyvanlar aləmi" seriyasının üçüncü cildinin - Onurğalılar (2000) məsul redaktoru idim. Son illərdə əsas perspektiv müşahidələr məməlilərin antropogen təsirlər şəraitində qenofondunun, populyasiya dinamikasının və bio-ekologi xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 1

1. **Əsas elmi əsərlərin adları:**Azərbaycanda yarasaların yayılması, sayı və qorunma tədbirləri.
2. Azıx mağarası yarasalarının ekologiyası üzrə materiallar.
3. Azərbaycanda Aralıqdənizi şəppərəsinin (Vespertilio kuhli Kuhl, 1819) ekologiyası.
4. Azərbaycanda bəzi yarasa növlərinin morfometrik xarakteristikası.
5. Şərqi Zaqafqaziyada yarasaların çoxalma və postnatal inkişafının müqayisəli xarakteristikası.

- **Beynəlxalq və xarici ölkələrin elmi qurumlarında üzvlüyü:** 20 dəfədən çox Beynəlxalq və Avropa konfranslarında Azərbaycanı təmsil edirdim. Yarasaların qorunması beynəlxalq cəmiyyətinin (ABŞ) elmi şurasının, yarasaların öyrənilməsi və qorunması Avropa xüsusi qrupunun üzvü.
- **Təltif və fəxri adları:** AMEA-nın Fəxri fərmanı; Əmək veteranı



# Leyla Məcid qızı Rzayeva

- **Anadan olduğu yer:**Azərbaycan Respublikası, Ağdam ş.
- **Təvəllüdü:**12.10.1927
- **Təhsili:**Azərbaycan Dövlət Universiteti, bioloq-zooloq
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Baş elmi işçi
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:**03.00.09 - Entomologiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:**85, 1 monoqrafiya
- **Xaricdə çıxmış elmi əsərlərin sayı:**20
- **Əsas elmi nailiyyətləri:**Bir çox kənd təsərrüfatı zərəvericilərinin entomofaq - xalsid cücü kompleksi müəyyənləşdirilmiş və bu zərərvericilərin say dinamikasının tənzimində rolu öyrənilmişdir. Alınmış nəticələr gələcəkdə qorxulu bitki zərərvericilərinə qarşı bioloji mübarizə üsulunun geniş tətbiqinə imkan verir.
- **Kadr hazırlığı:**
  **elmlər namizədlərinin sayı:** 2

1. **Əsas elmi əsərlərin adları:** Перспективы. биол. борьбы с вредными кокситами на территории Азербайджанской ССР.
2. Особенности Ландшафтного распределения хальцид и степень их сходств в Восточном Закавказье.
3. Зоогеографический анализ фауны Хальцид Восточного Закавказья и некоторые аспекты истории ее формирования.
4. Результаты и задачи интродукции хальцид в Азербайджане.
5. Состояние и перспективы интродукции энтомофагов для борьбы с вредителями плодовых культур и винограда в Азербайджанской Республике.
6. Хальциды (Hymenoptera Chalcidoidea) Восточного Закавказья и их хозяйственное значение. (Монография)

# İsmayıl Ələkbər oğlu Sadıqov

- **Anadan olduğu yer:**Azərbaycan Respublikası, Gədəbəy rayonu, Soyuqbulaq kəndi
- **Təvəllüdü:**15.01.1928
- **Təhsili:**Moskva Baytarlıq Akademiyası, baytar həkimi
- **Elmi dərəcəsi:**Biologiya elmləri doktoru
- **Elmi rütbəsi:**Professor
- **Doktorluq dissertasiyasının ixtisas şifri və ixtisasın adı:** 03.00.08 - Zoologiya
- **Çapdan çıxmış elmi əsərlərin ümumi sayı:** 193
- **Xaricdə çıxmış elmi əsərlərin ümumi sayı:** 56
- **Müəlliflik şəhadətnamələrinin və patentlərin sayı:** 3
